# Üç qardaşın acı həyat hekayəti

## (Seyid Şuşinski niyə evlənmədi?..)





*Ramiz MÖVSÜM*

Neçə illər əvvəl Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə getmişdim. Giriş qapısının böyründə yaşlı bir kişi kürsüdə əyləşmişdi. Onunla salamlaşdım. Məndən soruşdu: - Bağışlayın, hara gedirsiniz?

Dedim ki, qızımın sənədlərilə əlaqədar gəlmişəm.

O dedi: - İş qurtarıb, hamı gedib. Başqa vaxt gəlin. Mən burada gözətçiyəm.

Qocanın ləhcəsi mənə çox şirin gəldi. Dedim: - Sözünüzün ahəngindən zənn edirəm ki, qarabağlısınız.

Dedi: - Yanılmamısınız, elədir ki, var. Xalis şuşalıyam.

Dedim: -Şuşada kimlərə qohumluğunuz çatır?

O, mənim sualımı suallandırdı: - Siz Şuşada kimi tanıyırsınız?..

Dedim: - Ağsaqqal, mən də qarabağlıyam. Ağdamda doğulsam da, uşaqlığım Şuşada keçib. Demək olar ki, hər yay tətilində atam bizi - üç oğlunu, üç də qızını hökumət hesabına Şuşada Uşaq sanatoriyasına yerləşdirirdi. Bizim kimi respublikamızın hər bölgəsindən yüzlərlə uşaqlar yayın üç ayını o sanatoriyada istirahət edirdilər. Uşaq sanatoriyası ilin bütün fəsillərində fəaliyyət göstərirdi. Payız, qış, yaz fəsillərində isə şuşalı uşaqlar çoxluq təşkil edirdilər. Bu fəsillərdə sanatoriyaya yaxın rayonlardan tək-tək gələn uşaqlar Şuşa məktəblərində təhsillərini davam etdirirdilər. 1954-cü ildə mən də avqustun sonunda Ağdama qayıtmadım, sanatoriyada qalıb, birinci rübü 1 № li Şuşa şəhər orta məktəbində oxudum. Məlumatımız vardı ki, bizim istirahət etdiyimiz sanatoriya ulu, xoşməramlı nənəmiz Xan qızı Natəvanın imarəti idi. Sanatoriyanın qənşərində ucu-bucağı görünməyən tut bağı vardı. Bu bağ bal kimi şəhdi süzülən şirin barını biz uşaqlardan əsirgəməzdi. Sanatoriyanın digər tərəfində Xan qızının xüsusi zövqlə tikdirdiyi yaraşıqlı novlu bulaqların bumbuz suyu yay aylarınada od tutub yanan ürəklərimizi sərinlədirdi. Həm də şır-şır axan bu nəğməkar bulaqlar gecələr biz uşaqlara laylay çalırdı... Bu yerdə mən söhbətimi yekunlaşdırdım.

O, başladı danışmağa: - Sizin maraqlı söhbətiniz çox yerinə düşdü. Mən işdəyəm. Adətən mənə müraciət edənləri üç-beş kəlməylə razı yola salıram. Siz isə mənim Şuşa dərdimi təzələdiniz. Dediklərinizin hamısı gerçəkdir. Gəlin, tanış olaq.

Əl tutduq. Mən ona adımı dedim. O da dedi ki, mənim adım İbrahimdir. Yadımdadır, balaca vaxtı mənə İbiş deyirdilər. Bilsəniz ki, mən kiməm, yəqin ki, kədərlənəcəksiniz.

Ona dedim: - Buyurun, dinləyirəm sizi.

O, udqundu. Görünür, danışmağa çətinlik çəkirdi. Bu an onun üzündəki kədəri sezdim... Dedim ki, xahiş edirəm, danışın.

O, dərindən köksünü ötürüb, dilləndi:- Mən ustad xanəndə Seyid Şuşinskinin qardaşı oğluyam. Atamgil üç qardaş idilər: Zülfüqar, Miriş, Mir Möhsün. Böyük əmim Zülfüqar 1918-ci ildə erməni-müsəlman davasında həlak oldu. Atam Miriş mənə atasının adını qoymuşdu. Mən babam İbrahimin adını daşıdığıma görə, indinin özündə də fəxr duyuram. O dövrdə atam sayılıb-seçilən xanəndə idi. Toylar, el şənlikləri onsuz keçməzdi. O dövrün qatı dindarları - dinə bütün incəsənət dəyərlərini qurban verən imansız mollaları atamın xanəndəliyinə qadağa qoymuşdular ki, bu - şeytan əməlidir, dinə ziddir!.. Amma atam dəfələrlə mollalar tərəfindən xəbərdarlıq aldığına baxmayaraq, sevimli peşəsindən əl çəkmədi. Buna görə də mollalar dilbir olub, əlbir olub, atamı aradan götürdülər. Heç nə edə bilmədik, atamın qanı batdı. Onun ölümü sonbeşik əmim Mir Möhsünün sağlamlığına ağır zərbə vurdu, sevimli qardaşının ölümü onu bərk sarsıtmışdı, o, tərkdünyalığa düçar olub, özünə qapanmışdı. Əmim günlərlə ac qalırdı, boğazından su da keçmirdi. Yeganə həmdəmi kağız parçasına bükəndən sonra, yandırıb çəkdiyi tənbəki eşməsi idi. Biri qurtarmamış, o birini eşirdi... O, söz verdi ki, qardaşım Mirişin ölümündən sonra, mən heç vaxt evlənməyəcəyəm! Əmim verdiyi vədinə əməl etdi. Axırda da bu sirri haqq dünyasına özüylə apardı...

Üç qardaşın kədərli həyat hekayəsi hər ikimizi bərk kövrəltmişdi. İbrahim kişini qəhər boğurdu. Mənim də gözlərim dolmuşdu. Yanağımın islandığını hiss edirdim. Elə bu an İbrahim kişi boğazını arıtlayıb, söhbətini davam etdirdi: -Atam ölsə də, sənəti ölmədi. Mir Möhsün əmim sağlığında Seyid Şuşiniski adıyla atamın sevimli sənətini yaşatdı, ecazkar muğamı zirvəyə qaldırdı!..

İbarhim kişi söhbətini tamamladı. Qardaşların hər üçünə Tanrıdan Cənnət dilədik!.. Yerləri behiştlik olsun, - dedik. Sonra da biz vidalaşıb, doğmalar kimi ayrıldıq...

* * *

Bir xeyli müddət keçəndən sonra, gəldim ki, İbrahim kişiyə baş çəkim, ümidim boşa çıxdı. Kor-peşiman qayıdıb getdim. Çox gəldim, daha onu yerində tapmadım. Görən, zavallı qocanın başına nə gəldi... Bu fani dünyaya etibat yoxdur. Bəd fikirləri yaxın buraxmıram, hər şeyi yaxşılığa yozuram. Ümidvaram ki, onunla yenə də rastlaşacağam!..